# *PEDAQOJİ KADR HAZIRLIĞI*

UOT 37.

***Sevil Mirhəsən qızı İsayeva***
*Mingəçevir Dövlət Universitetinin müəllimi*

## PEDAQOJİ KADR HAZIRLIĞI VƏ DİL MƏSƏLƏSİ

***Севиль Миргасан гызы Исаева***
*старший преподаватель Мингечаурского Государственного Университета*

## ПОДГОТОВКА ПЕДАГОГИЧЕСКИХ КАДРОВ И ЯЗЫКОВЫЕ ПРОБЛЕМЫ

***Sevil Mirhasan Isayeva***
*senior lecturer of Mingechaur State University*

## PREPARATION OF PEDAGOGICAL PERSONNEL AND LANGUAGE PROBLEMS

**Xülasə.** Nitq mədəniyyətində başlıca problem öz ədəbi tələffüzümüzü mədəni nitqin normalarına uyğunlaşdırmaq fikrindən uzaq olmağımızdır. Dildə bir çox söz vurğuya görə düzgün tələffüz edilmədikdə məna pozula bilir, nitqin təsiri azalır. Deməli, orfoepiyanın nəzəri və praktik cəhətdən öyrənilməsinin çox böyük əhəmiyyəti vardır, eyni sözün müxtəlif formalarda tələffüz edilməsinə yol vermir. Məqalədə orfoepiyanın böyük ictimai əhəmiyyətə malik olmasından bəhs edilir.
***Açar sözlər:*** *orfoepiya, nitq mədəniyyəti, ünsiyyət, tələffüz, fəaliyyət, cəmiyyət*

**Резюме.** Основная проблема речевой культуры заключается в том, что мы далеки от идеи соответствия нашего литературного произношения к культурным нормам. Значение многих слов в языке могут быть искажены, вследствие неверного ударения, тем самым уменьшив влияние речи. Таким образом, теоретическое и практическое изучение орфоэпии имеет большое значение и не позволяет произносить одно и то же слово в различных формах. В статье подчеркивается важность социального значения орфоэпии.
***Ключевые слова:*** *орфоэпия, культура речи, общение, произношение, деятельность, общество*

**Summary.** The main problem of speech culture is that we are far from the idea of the conformity of our literary pronunciation to cultural norms. The meaning of many words in a language can be distorted due to incorrect emphasis, thereby reducing the influence of speech. Thus, the theoretical and practical study of orthoepy is of great importance and does not allow you to pronounce the same word in different forms. The article emphasizes the importance of the social significance of orthoepy.
***Key words:*** *spelling, speech culture, communication, pronunciation, activity, society*

XXI yüzillik ağılın, intellektin təntənəsinə əsaslanır. Müstəqillik yoluna çıxmış respublikamızın milli mənafeyi Azərbaycan məktəbinin, ilk növbədə, məhz ağıl, intellekt məktəbi olmasını tələb edir. Təhsil sahəsində islahatların əsas məqsədi inkişaf etmiş ölkələrin təhsil səviyyəsinə çatmaq, dövrün, zamanın tələblərinə uyğun olaraq dünya təhsil sisteminə uyğunlaşmaqdır.

Ölkəmizdə hər hansı bir sahədə müşahidə olunan inkişaf təhsil sahəsində də özünü göstərməkdədir. İnsan inkişafının təmin edilməsi dövlət siyasətinin vacib bir hissəsinə çevrilmişdir. Ən əsas amil kimi insanın cəmiyyətdə vəziyyəti qiymətləndirilir. Bu zaman inkişafın nə dərəcədə müvəffəqiyyətli olması insanın həmin cəmiyyətdə layiqli yer tutması, cəmiyyətdə gedən proseslərdə fəal iştirak etməsi ilə müəyyən edilir. Dövrün qlobal problemləri insan münasibətindən su içir. Ünsiyyət olmadan insanların birgə fəaliyyətinin həyata keçirilməsi mümkün deyil-

dir. Münasibət yaratmaq insandan böyük ünsiyyət bacarığı tələb edir. Ünsiyyət informasiya mübadiləsidir. Nitq ünsiyyətin vacib bir hissəsidir. Nitq bacarıqlarının normal formalaşması üçün psixi inkişaf müəyyən səviyyədə olmalıdır. Hər şeydən əvvəl lazımdır ki, uşaqda beynin müxtəlif strukturlarının inkişafı müəyyən səviyyədə olsun; səs və tənəffüs sistemi, artikulyasiya orqanları düzgün və koordinasiyalı işləsin; eşitmə və görmə, hərəki bacarıqlar, emosiyalar –kifayət qədər inkişaf etsin; ünsiyyətə ehtiyac yaratmağı formalaşdıra bilsin. Ali məktəblərdə pedaqoji kadrlar hazırlanarkən pedaqoji ünsiyyət zamanı müəllimin mövqeyinin mühüm vasitə rolu oynaması, təhsildə aparıcı qüvvə olması, cəmiyyətin ən mühüm sosial sifarişini, gələcəyin layiqli vətəndaşlarını şəxsiyyət kimi yetişdirən bir şəxs olması kimi vacib məsələlər xüsusi olaraq dərk etdirilməlidir.

Təhsildə aparılan islahatlar müəllimin hazırlıq səviyyəsinin yüksəldilməsini, peşəkarlığını tələb edir. Hər şeyi şagirdlərə öyrətmək qeyri-mümkündür. Onlara bilikləri əldə etməyin yollarını öyrətmək, müxtəlif vasitələrlə onlarda intellektual, kommunikativ, yaradıcı bacarıqları müasir tələblər təcrübəsinə əsaslanaraq təlim fəaliyyətinə tətbiq etməyə maraq oyatmaq, əməkdaşlıq şəraitində onlarla dialoqa girmək, zəruri hallarda səhvləri düzəltmək, dəstək olmaq, fəaliyyətini daim izləmək, istiqamətləndirmək, idraki, psixomotor və kommunikativ fəaliyyətlərini həyati bacarıqlarla əlaqələndirməkdə yardımçı olmaq lazımdır. Kurikulumların tətbiqi zamanı yeni pedaqoji kadrlar dövlət təhsil standartlarını tətbiq edərkən biliyin deklarativ, prosedural, kontekstual olduğunu və həmçinin oradakı fəaliyyətin idraki, emosional və psixomotor olduğunu nəzərə almalıdır.

Bu gün pedaqoji tədqiqatların qarşısında duran ən ciddi vəzifələrdən biri də yaradıcı, müasir düşünən, bu günün sosial, iqtisadi və psixoloji reallıqları əsasında işini səmərəli qura bilən müəllimlərin hazırlığına ciddi töhfə verməkdir. Məhz təhsil vasitəsilə cəmiyyətin təhsil tələbatına uyğun müvafiq kadrlar hazırlanır. Dərin biliyə, səriştəyə malik kadrların formalaşdırılması isə ilk növbədə, təhsilin məzmunundan, nəyin və necə öyrənilməsindən, öyrənən-öyrədən münasibətlərinin düzgün tənzimlənməsindən xeyli dərəcədə asılıdır. Ona görə də təhsillə bağlı ciddi elmi araşdırmaların aparılması nəzəri və praktik istiqamətlərdə problemlərin tədqiqi, cəmiyyətin inkişafına xidmət edən təkliflərin həyata keçirilməsi vacib cəhətlərdən biridir.

Tarixən cəmiyyətin inkişafında, təlim-tərbiyə işinin keyfiyyətcə yüksəldilməsində müəllim amili diqqət mərkəzində olmuşdur. Müəllimin bilik və bacarığı, səriştəsi, şəxsiyyəti cəmiyyətdə həmişə örnək, nümunə kimi göstərilmişdir. Pedaqoji fəaliyyət prosesində yeniliklər tətbiq olunarkən elmi-pedaqoji tələblər nəzərə alınmalıdır. Məlum olduğu kimi, gənclərin ali təhsil prosesi ümumi orta təhsil bazasının əsasında davam etdirilir. Pedaqoji kadrların hazırlanmasında tələbə-müəllim münasibətinin yaxınlığı mühüm əhəmiyyət kəsb edir. Azərbaycan dilinin zəngin lüğət tərkibinə yiyələnmək üçün sinif, qrup məşğələləri, sinifdənxaric tədbirlərin təşkili, fərdi və qrup məsləhətlərinin aparılması, müxtəlif mövzularda ədəbi-bədii gecələrin və disputların keçirilməsi mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Deməli, öyrənən və öyrədən münasibəti təlim prosesinin rəhni hesab edilir. Xüsusilə dil müəllimlərinin kafedranın dərs yükü tələbləri ilə əlaqədar tələbələrlə uzunmüddətli münasibətlərin davam etdirilməsi diqqəti cəlb edir.

Aparılan müşahidələrə əsasən tələbə-müəllim münasibətində özünü göstərən dil qüsurları morfologiya tədrisinin praktik istiqamətinin gücləndirilməsi sisteminə daxil olan və ya bu geniş iş sisteminin bir mühüm aspektini, yaxud da tərkib hissəsini təşkil edən ədəbi tələffüz vərdişlərinin inkişaf etdirilməsinə az diqqət yetirilməsinin nəticəsidir. Pedaqoji elmlər doktoru, professor Əziz Əfəndizadə təlimdə praktik işlərin aparılmasına, bacarıq və vərdişlərin aşılanmasına və gücləndirilməsinə diqqət yetirməyi əsl metodika hesab edər və göstərərdi ki, dildən nitqə aparan iş metodları müəllim fəaliyyətinin məhək daşıdır və əgər yüksək pedaqoji kadr hazırlamaq istəyiriksə, onun təlimdə mədəni nitq vərdişləri formalaşdırmaq qabiliyyətini nəzərə almalıyıq. Lakin onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, ali məktəblərə test üsulu ilə qəbul olunmuş tələbələrin müəyyən bir qismi nitq qüsurlu olurlar; belə ki, çatdırmaq istədikləri fikirləri sürətli şəkildə ifadə edir, sözləri aydın tələffüz etməkdə çətinlik çəkirlər. Bu da gələcək-

də müəllim ixtisasına yiyələnmək istəyən kadrlar üçün qənaətbəxş deyildir.

Mədəni nitq dil normalarının bütün fonetik (orfoqrafik və orfoepik), leksik, qrammatik və üslubi səviyyələrində qurulan danışığa və yazıya deyilir. Şifahi danışıq yazılı nitqi, öz növbəsində yazılı nitq də şifahi nitqi inkişaf etdirir, təkmilləşdirir.

Şifahi nitqin yazılı nitqə nisbətən üstünlüklərə malik olduğunu göstərən tələffüz məsələsi, yəni səslənməsidir. Səslənmənin gözəlliyi isə intonasiya, vurğu və orfoepik ifadə tərzi ilə mümkün olur. Ədəbi tələffüzdə vurğu, intonasiya və orfoepik normalara riayət etməyin əhəmiyyəti inkaredilməzdir, çünki ədəbi tələffüz xüsusi problem kimi götürüldükdə, o, fonetika kursunun materialıdır: yəni danışıqla, danışıq səsləri və ya səslənmə ilə əlaqədardır. Lakin burada söhbət təkcə səslərin tələffüzündən getmir, sözlərin tələffüzündən gedir ki, bu da söz probleminin predmetinə uyğun gəlir, sözü isə bir neçə cəhətdən öyrənən xüsusi bölmələr mövcuddur ki, bunlara leksika, qrammatika, üslubiyyatı və s. nümunə göstərə bilərik.

O da məlumdur ki, fonetik vahid olmasına baxmayaraq, vurğu, intonasiya və orfoepiya xüsusi mövzular kimi də öyrənilir. Ancaq birlikdə ədəbi tələffüzü təşkil etdiklərindən, şifahi nitqin komponentlərinə daxil olduqlarından biz onları mədəni nitqin, yəni ədəbi tələffüzün tələblərinə daxil olan komponentlər kimi tədris etməyin, morfologiya təlimində isə onlara əhəmiyyətli dərəcədə xüsusi yer ayırmağın vacibliyini qeyd etməliyik.

Şifahi və yazılı ədəbi dilin müasir dövrdə də öz problemləri qalmaqdadır; belə ki, son vaxtlar ədəbi tələffüzün linqvistik normalara əsasən qurulmasına nəzarət və məsuliyyət xeyli zəifləmişdir.

Şifahi nitqdə və ədəbi tələffüzdə qaydalara əməl olunmasına tənqidi münasibət göstərilməsi filoloq müəllimlərin vəzifələrinə aid olan məsələdir. Filoloq müəllimlər radio və televiziyada vurğusu yerində işlənməyən sözlərin (təkcə, ayrıca, bircə, məsuliyyət, şəxsiyyət, sözsüz, kimsəsiz, şair, başqa, nəhayət, arzu, İngiltərə və s.) səhv tələffüzünü qeydə almalı və "Vurğu" mövzusunda onların üzərində vərdişlərin formalaşdırılmasına başlıca diqqət yetirməlidir. Nitqdə vurğu ilə bağlı dil faktlarını qeyri-ciddi məsələ hesab etmək olmaz. Bəzi müəllimlərimiz orfoepiya təliminə orfoqrafiyaya olduğu qədər diqqət yetirmirlər ki, bu da problemi doğuran subyektiv amillərdir. Onlar sonu [n], [z], [r] səsləri ilə bitən sözlərin cəmdə (-lar, -lər) işlənən formalarının tələffüzünə birdəfəlik vərdiş etmək istəmirlər. Məsələn, [oxuyannar], [yazannar], [gələnnər]; [qazdar], [qızdar], [palazdar]; [narrar], [qarrar], [divarrar], [şairrər] və s.

Ümumiyyətlə, qoşa saitli, qoşa samitli, idi, imiş, isə hissəcikləri ilə işlənən sözlərin ədəbi tələffüzünə (alseydi, gəlseydi, görseymiş), o cümlədən də [c] samiti ilə bitən sözlərin –lı, -li, -lu, -lü, -lar, -lər, -sız, -siz, -suz, -süz şəkilçiləri ilə işlənərkən səslənməsinə fikir verməyin vaxtıdır. (Bu çağırış reportyorlara, diktorlara və müəllimlərə daha çox aiddir). Məsələn, güclü – güjdü; gücsüz – güjsüz; gənclər – gənjdər; gəncsiz – gənjsis və s.

Məlumdur ki, şivələr, yazı, ənənəvi və əcnəbi mənbələr ədəbi tələffüzün həm yaranma, həm də pozulma mənbəyi hesab edilir. Bir sıra şivə qrupları üçün əlamətdar olan udun, üz-güzüm, gələ:tdi, nöş, popağ, diyan, gələrsüz, gedax gəlax, ge: cux, ateyin, bajı, dayna, gedəjəm və s. kimi bir sıra xüsusiyyətlər ədəbi tələffüz baxımından məqbul sayılmır. Vaxtı ilə dilimizə keçən adam, qayda, toxum, fayda və s. tipli sözlərin yazılışı Azərbaycan dilinin qayda-qanunlarına uyğunlaşdırılaraq belə yazılmışdır. Komsomol, kolxoz, kosmos, kollektiv və s. sözlər rus dilinin ədəbi tələffüz normalarına uyğun olaraq, yəni **kom, kos, kol** hecalarındakı **"o"** saiti **"a"** çalarlığında tələffüz olunur.

Dildə bir çox söz vurğuya görə düzgün tələffüz edilmədikdə məna pozula bilir, nitqin təsiri azalır. Orfoepiyanın böyük ictimai əhəmiyyəti vardır: eyni sözün müxtəlif formalarda tələffüz edilməsinə yol vermir. Deməli, orfoepiyanı nəzəri və praktik cəhətdən öyrənilməsinin çox böyük əhəmiyyəti vardır. Lakin son illərdə orfoepiya lüğətinin olmaması, yaxud da az olması bu sahədə çətinliklər yaradır.

Yamanlıq, otluq, rahatlıq, papaq, qazmaq və s. kimi sözlər bəzi orfoepik lügətlərdə [yamannığ], [otduğ], [rahatdığ], [papağ], [qazmağ] kimi (Nəsimi adına Dilçilik İnstitutu, "Elm" nəşriyyatı, Bakı-1983), bəzisində isə (Aida Quliyeva, Məmmədxan Soltanov. Məktəblinin orfoqrafiya, orfoepiya, qrammatika lügəti. Bakı -

2011) [yamannıx], [otlux], [rahatdıx], [papax], [qazmax] kimi.

Beləliklə, nitq mədəniyyətində başlıca problem öz ədəbi tələffüzümüzü mədəni nitqin normalarına uyğunlaşdırmaq fikrindən uzaq olmağımızdır. Təhsilimizin yeni inkişaf dövrü əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, müasir mərhələdə prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə miqyasında müxtəlif sahələrdə, o cümlədən təhsil sahəsində islahatlar mərhələ-mərhələ həyata keçirilir. Son illər iqtisadiyyatın dinamik inkişafı təhsilin inkişafı üçün də əlverişli şərait yaratmışdır. Mütərəqqi elm və təhsil ənənələri uğurla davam etdirilmiş, yeni dövrün tələbi əsasında xeyli dərəcədə zənginləşmişdir.

**Problemin elmi yeniliyi**. Bu gün pedaqoji tədqiqatların qarşısında duran ən ciddi vəzifələrdən biri də yaradıcı, müasir düşünən, bu günün sosial, iqtisadi və psixoloji reallıqları əsasında işini səmərəli qura bilən müəllimlərin hazırlığına ciddi töhfə verməkdir. Dərin biliyə, səriştəyə malik kadrların formalaşdırılması nəyin və necə öyrənilməsindən, öyrənən-öyrədən münasibətlərinin düzgün tənzimlənməsindən xeyli dərəcədə asılıdır. Ona görə də təhsillə bağlı ciddi elmi araşdırmaların aparılması nəzəri və praktik istiqamətlərdə problemlərin tədqiqi, cəmiyyətin inkişafına xidmət edən təkliflərin həyata keçirilməsi vacib cəhətlərdən biridir.

**Problemin praktik əhəmiyyəti.** Tədqiqat materiallarımıza əsaslanan məlumatlar müəllimlər tərəfindən istifadə edilə bilər.

**Problemin aktuallığı.** Məqalədə tədqiq olunan məsələlər ədəbi dil ilə danışıq dili arasındakı fərqin azalması cəmiyyətin mədəni tərəqqisinə xidmət edəcəkdir.

**Ədəbiyyat:**

1. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Əsrin meqameylləri: Psixo- pedaqoji problemlər. 1-ci kitab. Bakı, 2008.
2. "Azərbaycan müəllimi" qəz., 2011, № 50
3. Quliyeva A., Soltanov M. Məktəblinin orfoqrafiya, orfoepiya, qrammatika lüğəti. Bakı, 2011.

**E-mai:** sevil Hesenova57@mail.ru
**Rəyçi:** *ped.ü.fəls.dok., dos.* **Z.M. Əzizova**

**Redaksiyaya daxil olub:** 01.10 2019.